**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**LEYLA ALLAHQULU qızı ƏLİYEVA**

# YUSİF SƏMƏDOĞLUNUN NƏSRİNDƏ YADDAŞIN BƏDİİ-ESTETİK FUNKSİYASI

5716.01 – Azərbaycan ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Tahirə Qəşəm qızı Məmməd,**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Hüseyn Məmməd oğlu Həşimli ,**
filologiya üzrə elmlər doktoru, professor

**Rəhim Nadir oğlu Əliyev,**
filologiya üzrə elmlər doktoru

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrası**

Müdafiə "____" _________ 2018-ci il saat "____" da Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyaların müdafiəsini keçirən D.01.131 - Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az-1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı, IV mərtəbə.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____" ___________2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının Elmi katibi:** **İsmixan Məhəmməd oğlu Osmanlı,**
filologiya üzrə fəlsəfə doktoru

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Yusif Səmədoğlunun özünəməxsus sənətkarlığının, onun roman və hekayələrinin fərqli ideya, kompozisiya xüsusiyyətlərinin müfəssəl şəkildə dəyərləndirilməsi ədəbiyyatşünasliq elminin qarşısında duran əsas məsələlərdən biridir. Hələ sovet dönəmindən başlayaraq tənqid və ədəbiyyatşünaslığın daim diqqət mərkəzində duran Yusif Səmədoğlu yaradıcılığı haqqında bir çox elmi əsərlər yazılmışdır. Yazıçının bədii irsi özünün fərdi yaradıcılıq üslubu, özünəməxsus sənətkarlıq məziyyətləri, nəsr poetikasının dərinliyi, mürəkkəbliyi və qeyri-adiliyi ilə, tədqiqatçıların kifayət qədər geniş və yeni elmi mövzu, tədqiq predmeti və obyekti seçimi edə biləcəkləri potensial baza keyfiyyətinə malikdir. Y.Səmədoğlu yaradıcılığı, müxtəlif istiqamətli tədqiqatlara və metodoloji yanaşmalara açıq, güclü bədii konsepsiyası ilə seçilir, bu da onun əsas üstünlüyünü təşkil edir. Bədii ədəbiyyatda yaddaş və ya yaddaşın yaratdığı bədii ədəbiyyat baxımından da yazıçının əsərləri kifayət qədər material verə bilir.

Ümumiyyətlə, istənilən yazıçının ədəbiyyat tarixində özünəməxsus yer tutmasını səciyyələndirən əlamətlərdən biri də onun fərdi yaddaşıdır. Yaddaş yazıçının bir növ xəzinəsi rolunu oynayır. Yazıçının yaşadığı, gördüyü, bildiyi, eşitdiyi, oxuduğu hər nə varsa, hamısı həmin xəzinəyə - yaddaşa toplanır. Milli yaddaş, ədəbi yaddaş, tarixi yaddaş müəllif yaddaşının ayrı ayrı qatlarını təşkil edir. Yaradıcılıq prosesində, bədii əsərin ərsəyə gəliş müddətində yazıçı öz yaddaşında yığılanları oxucuya ötürməyə can atır. Bədii sözün gücündən ustalıqla istifadə etməyi bacaran yazıçı öz yaddaşından seçdiklərini uğurla bədii əsərə gətir, hətta, bütöv yaddaşını bədii mətnə çevirə bilər. Cəmiyyətdə qavranılan istənilən nəsnənin məna kəsb etməsi yaddaşda yer alan yaşanılanlar, zehni və hissi qazanclarla birbaşa bağlıdır. Qavranılanı xatırlanana çevirən, müəyyən mədəni mühitdə yaşayan fərdin daha əvvəl yaşadıqları ilə halhazırda öyrəndiklərini bir-biri ilə bağlılığını çözmək qabiliyyətidir. Fərdin yaddaşının kəsb etdiyi məzmunun izahı isə birbaşa yaşadığı mühitin izahı ilə mümkündür. Fərdin bütöv həyatı boyunca, ayrı-ayrı dönəmlərdə yaşamını paylaşdığı mədəni ortamlar onun yaddaşını formalaşdırır. Yaddaş xatırlamalar vasitəsilə üzə çıxır. Yaddaş ünsürü bu və ya başqa dərəcədə insan şüurunun bütün aktlarında iştirak edir. Yaddaşsız mədəniyyət yoxdur. Fəlsəfi-psixoloji baxımdan insan gözü önündə baş verən çağdaş olayları bilavasitə özünün təəssüratında hasil edir. “Zamanın yeganə meyarı” (Deni Didro) olan yaddaş haqqında ingilis yazıçısı Cerom Klapka Ceromun məşhur

aforizmində deyilir: “Yaddaş qəribə görüntülər yaratmağı bacarır. O, ruhların məskən saldığı evə bənzəyir və bu evin divarları arasında daim gözəgörünməz addımların əks-sədası eşidilir. Şüşələri sınmış pəncərələrdə ölənlərin qaraltıları görünüb-yox olur, lap yanımızda isə bizim keçmiş günlərimizin kədərli kabusları dolaşır”[1]. Yaddaş sözün dar mənasında fərdin, sözün geniş mənasında isə bəşəriyyətin indidə yaşayan keçmişidir.

Azərbaycan ədəbiyyatının, o cümlədən bədii nəsrin inkişafının XX əsrin ikinci yarısı xüsusi anlam qazanması haqqında çox yazıblar. İkinci dünya müharibəsindən sonra müharibənin insan talelərində buraxdığı izlərin yazıçıların fərdi-emosional yanaşmaları ilə özünün bədii ifadəsini tapması əslində təbii proses idi. Lakin dövrün hakim ideolojisi ortaya konfliktsizlik nəzəriyyəsini atmaqla bu prosesin qarşısını almağa cəhd göstərirdi. 1950-ci illərin ədəbi prosesindəki bir çox ziddiyyətlər köhnə bolşevik ədəbi siyasətindən – “konfliktsizlik” dən irəli gəlirdi. Ədəbiyyatın estetik təbiətinə zidd olan nəzəriyyəni müdafiə edən bu siyasət nəticəsində ədəbiyyati bəsit təbliğat formasına çevrilirdi. Həyat həqiqətlərini ədəbiyyatdan uzaqlaşdırmaq üçün konfliktsizlik nəzəriyyəsi ortaya atılmış, sovet gerçəkliyində bütün ziddiyyətlərin həllini tapdığı iddia olunur, ədəbiyyatın da sosial ziddiyyətlərdən bəhs etməsi məqbul hesab edilmirdi. Ədəbiyyatın publisistika səviyyəsinə endirilməsi xarakterik hal alırdı. Lakin 1950-ci illərin sonu, 60-cı illərin əvvəllərində baş verən hadisələrin ədəbiyyatda doğurduğu böyük rezonans müəllif müvəffəqiyyəti qazanmış bütün əsərlərdə həyatı inikas üsullarının müxtəlifliynə və fərdi üslub rəngarəngliyinə səbəb oldu. Y.Səmədoğlu bədii yaradıcılıq fəaliyyətinə məhz belə bir mərhələdə başlamışdır. 1959-cu ildə "Yaddan çıxmış sözlər" novellasını, "Xəzri" hekayəsini yazmışdır. 1960-70-ci illərdə isə nəsrdə baş verən bütün dəyişikliklər öz rəsmi adını, “yeni nəsr” istilahını qazandı. Nəsrdə janr-üslub axtarışları, hərəkətlilik, bədii əsərin strukturundakı insana, həyata, zamana münasibətdəki əhəmiyyətli dönüş, şəxsiyyətin psixoloji aləminə daha həssas yanaşma, humanizmin güclənməsi, həyat gerçəklərinin təsvirində mənəvi-əxlaqi aləmə keçidlərin artması, insan və həyat münasibətlərinin daha dərindən bədii inikası kimi məqamlar yeni nəsrin əsas göstəricilərinə çevrildi. Y.Səmədoğlu yeni nəsr dövrünün aparıcı simalarından biri idi. Düzdür, yazıçı 1980-ci illərə qədər ancaq kiçik janrla kifayətlənmiş, “220 nömrəli otaq” (1960), ”Qalaktika” (1973)

[1] Yaddaş haqqında deyilən aforizmlər
http://kayzen.az/blog/aforizmler/6942/yadda%C5%9F-haqq%C4%B1nda-deyil%C9%99n-aforizml%C9%99r.html

kitablarındakı hekayələrini, bir qədər sonra "Astana", "İncə dərəsində yaz çağı" kimi ədəbiyyat tarixinə iz buraxmış hekayələr yazmışdır.

Ötən əsrin 80-ci illərindən başlayan Azərbaycan insanının tədricən "müstəqilləşməsi" hadisəsində nəsrin xüsusi rolu var və bu nəsrin yeni cəhəti onun milli yaddaşın oyanması prosesinin ifadəçisi olmasında özünü göstərir. Millətin tarixinə marağın oyanması, yaddaşın ortaya çıxması prosesində zəmin rolunu oynayan faktlardan ən ümdəsi hərbi-totalitar rejimdə baş verən yumşalmalar idi. Bədii nəsr bu fürsətdən yararlanırdı, milli tarixi yaddaşın faktları, hadisələri, obraz və süjetləri bədii mövzuya cəlb olunurdu. Nəsrin axtarış və eksperimentləri nəticəsində müasir nəsrdə mifopoetik və folklor yaddaşına xas əlamətlər özünü göstərməyə başladı. Bu dövrdə nəsrdə mifopoetik və folklor motivlərinin təzahüründə Y.Səmədoğlu nəsrinin xüsusi yeri vardı. "Qətl günü" bu mərhələnin bütün əlamət və yeniliklərini özündə əks etdirə bilən yüksək sənətkarlıq xüsusiyyətləri ilə seçilən mükəmməl bir roman oldu.

Maraqlı yaradıcılıq yolu keçmiş Y.Səmədoğlu həm də, müstəqillik dövrü Azərbaycan nəsrinin tanınmış nümayəndələrindən biridir. 1990-cı illər nəsrimiz üçün də keçid dövrü xarakteri daşıyırdı və bu xarakter bədii nəsrin tematik müstəvisinə müxtəlif şəkillərdə yansıya bildi. İstənilən keçid dövrü öz insanlarını, düşüncə və həyat tərzini yaradır. Bədii nəsr öz təcrübəsini ələyərək, yararlı və yarasızları ayırd etməyə, sosializm doğmasından xilas olmağa can atırdı. Y.Səmədoğlu bu mərhələyə "Deyilənlər gəldi başa" romanı ilə öz imzasını atdı.. Çox təəssüf ki, bu romanı o tamamlaya bilmədi, əsər yazıçının ölümündən sonra çap olundu. Bu əsərin natamamlığı və ya bitkinliyi məsələsinə dissertasiyada xüsusi yer verilmişdir.

Göründüyü kimi, Y.Səmədoğlu təxminən yarıməsrlik yaradıcılıq dövründə XX əsr Azərbaycan nəsrinin müxtəlif mərhələlərindən keçmişdir. Bütün bu mərhələlərin əsas xüsusiyyətləri və bədii-estetik koloriti onun yaradıcılığında əxz oluna bilmişdi. Yaddaş bədii-estetik kateqoriya kimi yazıçının yaradıcılığında ümumi xətt kimi keçmiş, hekayədən başlayıb romanda bitən Y.Səmədoğlu bədii irsinin tədqiqi bu nöqteyi-nəzərdən də çox vacibdir. Yusif Səmədoğlu Azərbaycan nəsrinin yeni mərhələ inkişafında xüsusi rol oynayan yazıçılardan biridir. Milli-mədəni, tarixi-ictimai, mifopetik yaddaş onun əsərlərində ayrı-ayrı qatlar şəklində təzahür edir. Bu baxımdan Yusif Səmədoğlu yaradıcılığının hərtərəfli, obyektiv və müasir elmi meyar və prinsiplərlə öyrənilməsi müstəsna əhəmiyyətə malikdir və hər zaman aktualdır.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyektini Yusif Səmədoğlunun yaradıcılığının müxtəlif mərhələlərində yazdığı romanları

və hekayələri təşkil edir. “Xəzri”, “Yaddan çıxmış sözlər”, “Gözlər”, “Qartal”, “220 №-li otaq”, “Güllər”, “Saat işləyir”, “Simurq quşu”, “Qalaktika”, “Soyuq daş”, “Beşik”, “46-cı ilin oyunları”, “Foto-fantaziya”, “Astana”, “Bayatı-şiraz”, “İncə dərəsində yaz çağı” hekayələri və “Qətl günü”, “Deyilənlər gəldi başa..” romanlarının mətnləri yaddaş nöqteyi-nəzərindən dəyərləndirilərək tədqiqata cəlb edilmişdir. Dissertasiyada Yusif Səmədoğlu bədii nəsri ədəbiyyatda yaddaş anlayışı kontekstində götürüldüyündən, yaddaşın bədii-estetik səciyyəsi və xüsusiyyətlərinə dair araşdırmalar tədqiqatın prdemetinə şamil oluna bilər.

**Mövzunun işlənmə dərəcəsi.** Mövzunun öyrənilməsinə gəlincə bunları deyə bilərik. Ədəbiyyatşünaslıqda və tənqiddə Yusif Səmədoğlu yaradıcılığının müxtəlif tərəfləri barədə bir sıra tədqiqat əsərləri yazılmışdır. Filologiya üzrə fəlsəfə doktoru Lətafət Əliyevanın ”Yusif Səmədoğlunun yaradıcılığı” adlı dissertasiyası və tənqidçi-ədəbiyyatşünas Vaqif Yusifli “Unudulmayan Yusif Səmədoğlu” məqaləsi ilə yazıçının yaradıcılığını müəyyən aspektlərdən təhlil etmişlər. “Azərbaycan” jurnalının 2005-cil il tarixli 12-ci sayında Yusif Səmədoğlunun 70 illik yubileyinə həsr olunmuş məqalələr seriyası getmişdir. Prof. Tahirə Məmməd “ İki yol ayrıcında yazılmış roman”, prof. Rəhilə Qeybullayeva “Yusif Səmədoğlunun yaradıcılığında ölüm”, tənqidçi Vaqif Yusifli “Nəsrin ustası”, İntiqam Qasımzadə “Allahın nur payı”, Südabə Ağabalıyeva “Yusifdən yazmaq çətindir” məqalələri ilə Yusif Səmədoğlu yaradıcılığında önəmli məsələlərə toxunmuş, onun Azərbaycan ədəbiyyatında tutduğu yer haqqında dəyərli fikirlər söyləmişlər. Bir yazıçı kimi Azərbaycan nəsrinin yeni mərhələsinin formalaşmasında xüsusi çəkiyə malik roman və hekayələr müəllifi olaraq, Yusif Səmədoğlu nəsrinin özünəməxsusluğunu və təkrarsızlığını şərtləndirən amillərdən əsası məhz yaddaş məsələsinə dayanır. Milli-mədəni, tarixi-ictimai, mifopetik yaddaş onun əsərlərində ayrı-ayrı qatlar şəklində təzahür edir.

Göründüyü kimi, Y.Səmədoğlu bədii nəsrində yaddaş və onun bədii-estetik tədqiqi həm yazıçının yaradıcılığının ilk dəfə tamamilə yeni baxış bucağı altında öyrənilməsi, həm də Azərbaycan ədəbiyyatında yaddaşa ilk dəfə bədii-estetik konsepsiya şəklində münasibət bilidirilməsi nöqteyi-nəzərindən öz elmi yeniliyi ilə seçilir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya Y.Səmədoğlu nəsrində yaddaşın ümumi səciyyəsini müəyyənləşdirmək məqsədi daşıyır. Yaddaşı yazıçının bədii nəsrinin poetik özünəməxsusluğunun əsas dominantı kimi öyrənmək, bir bədii-estetik kateqoriya kimi Y.Səmədoğlunun roman və hekayələrinin üzərində təhlillər apamaqla tədqiq etmək dis-

sertasiyanın əsas məqsədini təşkil edir. Bu məqsəddən doğan vəzifələrin tədqiqat boyunca yerinə yetirilməsi şəraitində, Azərbaycan ədəbiyyatında, daha dəqiq desək müasir bədii nəsrimizdə yaddaş amilinin roluna ilk dəfə öz münasibətimizi bildirmiş oluruq ki, bu da dissertasiya mövzusunun həm yeniliyinə, həm də elmi aktuallığına zəmanət verir.

**Dissertasiyada qarşıya qoyulan vəzifələr bunlardır:**

- Yusif Səmədoğlunun yaradıcılığının Azərbaycan ədəbiyyatının tarixində və yaddaşında tutduğu əhəmiyyətli mövqeyini təsbit etmək;
- Yazıçının bədii-estetik dünyagörüşünün ümumi prinsip və meyarlarını müəyyənləşdirmək;
- Y.Səmədoğlu nəsrinin əsas səciyyəsi kimi yaddaşın müəllif fərdiliyi kontekstində izahını vermək;
- Yaddaşın bədii-estetik mahiyyəti ilə sosial məzmunu arasındakı əlaqəni müəyyənləşdirmək;
- Ədibin ayrı-ayrı mətnlərinin təhlili əsasında yaddaşın Y.Səmədoğlu nəsrinə məxsus tipoloji təsnifatını vermək;
- "Qətl günü" romanında mifopoetik yaddaşı əks etdirən motiv və arxetipləri seçmək, oxşar mətnlərlə müqayisə etmək;
- Folklor yaddaşının yazıçının yaradıcılığındakı izlərini və əlamətlərini konkretləşdirmək;
- Yazıçının müxtəlif illərdə yazdığı hekayələrdə milli-etnik yaddaşın mövqeyini və təsirini göstərmək;
- Ədibin əsərlərini ədəbi mətn yaddaşı kontekstində təhlil etmək, Azərbaycan və dünya ədəbiyyatının oxşar mətnləri arasında müqayisəsini aparmaq;
- Y.Səmədoğlunun yaradıcılığında yaddaşın yalnız məzmun-mövzu səviyyəsində işlənmədiyini aşkarlamaq;
- Ayrı-ayrı mətn nümunələri əsasında yaddaşın bədii əsərin qurulmasındakı rolunu göstərmək;
- Roman və hekayələrinin təhlili əsasında bədii əsərin formasına yaddaşdan istifadənin təsirini vurğulamaq;
- Yaddaşın bədii-estetik mahiyyətini, funksiyalarını və gerçəkləşmə vasitələrini Y.Səmədoğlunun əsərlərinin təhlili əsasında ümumiləşdirmək;
- Y.Səmədoğlu yaradıcılığında yaddaşın bədii-estetik funksiyasını konkret müddəalarla ortaya çıxarmaq.

**Tədqiqatın elmi yeniliyi.** Bu mövzu Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq elmi-nəzəri tədqiqata cəlb olunur, filologiya elmləri üzrə fəlsəfə doktorluğu səviyyəsində araşdırılır. Eyni zamanda,

– ilk dəfə dissertasiyada Y.Səmədoğlu nəsrində yaddaş bədii-estetik kateqoriya kimi araşdırılır, mövcud elmi-nəzəri ədəbiyyatşünaslıqda məsələyə münasibət gözdən keçirilir;
– ilk dəfə yazıçının əsərlərində yaddaşın sosial-psixoloji məzmunu ilə bədii-estetik mahiyyəti arasındakı əlaqəyə diqqət yetirilir;
– Y.Səmədoğlu nəsri kompleks şəkildə analitik təhlilə cəlb olunur, yaddaşdan istifadənin üsul və vasitələrinə münasibət bildirilir;
– Y.Səmədoğlu nəsrində yaddaş təkcə mövzu səviyyəsində deyil, həm də mətn tərtibinin əsas göstəricisi kimi araşdırılır;
– ilk dəfə Y.Səmədoğlu yaradıcılığı bədii əsərlərin təhlili nöqteyi nəzərindən kompleks şəkildə, sistemli ardıcıllıqla araşdırılır;
– Y.Səmədoğlu yaradıcılığında folklordan istifadənin ümumi qanunauyğunluğuna toxunulur;
– Mifik dünyagörüş ilə Y.Səmədoğlu yaradıcılığı arasındakə mövcud əlaqə üzə çıxarılır.
– Y.Səmədoğlunun əsərləri ilə dünya və Azərbaycan ədəbiyyatının bir çox əsərləri yaddaşdan istifadə baxımından müqayisə olunur;
– Y.Səmədoğlu nəsrində yaddaşın bədii-estetik funksiyasının tipoloji təsnifatı verilir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqat işi filologiya elmi sahəsindəki milli və ümumbəşəri dəyərlər, ədəbi-bədii materialın sistemli şəkildə araşdırılmasına əsaslanır. Dissertasiya işi müasir Azərbaycan ədəbiyyatşünaslığında ədəbi-tarixi prosesin tədqiqinin mövcud nəzəri prinsiplərinə əsaslanır. Tədqiqatın metdoloji əsasını Azərbaycan və dünya nəzəri fikrinin materialları təşkil edir. Mövzunun xarakterinə uyğun olaraq tədqiqat zamanı analitik metod əsas götürülmüş, bununla yanaşı Y.Səmədoğlu nəsrində yaddaşın bədii-estetik funksiyasını müəyyənləşdirmək məqsədilə, yazıçının əsərləri ilə səsləşən dünya və Azərbaycan ədəbi-tarixi prosesinə aid mətnlərlə müqayisəli təhlillər aparılıb. Buna görə də dissertasiyada müəyyən təhlillərdə tarixi-müqayisəli metoda da müraciət olunur.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Yusif Səmədoğlu yaradıcılığı, ədəbiyyatda yaddaş məsələsi ətrafında bir çox problem-sualların aydınlaşdıra və dəqiqləşdirə biləcəyi ilə ölçülür. Tədqiqat işi Azərbaycan nəsrinin poetik xüsusiyyətlərinin araşdırılmasının, yaddaş probleminə bağlı tədqiqlərın, bütövlükdə Yusif Səmədoğlu nəsrinin bədii-estetik kefiyyətləri

ilə bağlı  işlərin hazırlanmasında nəzəri əhəmiyyətə malikdir və bu istiqamətdəki gələcək tədqiqatlarda elmi mənbə funksiyasını da daşıya bilər.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. İşin əsas müddəaları müxtəlif elmi məcmuələrdə və beynəlxalq konfransların materiallarında dərc olunmuş elmi məqalə və tezislərdə öz əksini tapmışdır.

**Tədqiqat işinin quruluşu.** Dissertasiya işi giriş, hər biri müvafiq yarımfəsillərə bölünmüş üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** ində mövzunun aktuallığı, elmi yeniliyi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodu, mövzunun öyrənilməsi, dissertasiyanın nəzəri və təcrübi əhəmiyyəti, aprobasiyası göstərilmişdir.

**"Yusif Səmədoğlu nəsrində yaddaş: problemin qoyuluşu və elmi-nəzəri səciyyəsi adlı"** adlı I fəsil üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Yaddaşın sosial-psixoloji məzmunu və bədii-estetik mahiyyəti"** adlanır.

Yarımfəsildə vurğulanır ki, yaradıcılıq mürəkkəb fəaliyyət növüdür, bu aktın nəticəsində elm, incəsənət, texnika sahəsində yeni əsərlər meydana gəlir. Yaradıcılıq sözün hərfi mənasında nə isə yeninin yaradılmasıdır. Adətən yaradıcılıq fəaliyyətinin nəticəsində nə isə yeni bir ideya, nəzəriyyə, qanun, yeni maşın, yeni bir bədii əsər yaranır. Rus psixoloqu S.L.Rubinşteyn yaradıcılığa belə bir tərif vermişdir: «Yaradıcılıq insanın xüsusi növ fəaliyyəti olub ictimai əhəmiyyəti olan maddi və mənəvi dəyərlərin yaradılması prosesidir. Yaradıcılıq da mahiyyət etibari ilə idrakdır. Yaradıcılığa sadəcə olaraq idrakdır demək də azdır. Ona görə ki, hər cür idrak fəaliyyəti elə insanın fəallığıdır. Yaradıcılıq insanın fəallığının xüsusi formasıdır»[1]. Yaradıcılıq prosesində insanın bütün psixi prosesləri, onun duyğu, qavrayış, hafizə, təfəkkür və təxəyyülü iştirak edir. Bu da bir həqiqətdir ki, yaradıcılıq prosesində təxəyyülün rolu daha qabarıq şəkildə özünü göstərir. Xüsusilə bədii yaradıcılıqda təxəyyül müstəsna dərəcədə əhəmiyyətə malikdir. Hər bir ədəbi–bədii əsər ideya məzmuna malik olur. Sənətkar yazıçı bu ideyanı elmi əsərlərdəkindən fərqli olaraq konkret

[1] Рубинштейн, С. Л. Основы общей психологии.  Питер, 2002, с.360.

obrazların vasitəsilə əks etdirir. Obrazları yaradan isə yazıçının bədii təxəyyülüdür. Bədii təxəyyülün mahiyyəti yeni obrazlar yaratmaqdan ibarətdir. Məhz bu obrazlar yazıçının ideyalarının, fikirlərinin, düşüncələrinin daşıyıcısı funksiyasını yerinə yetirir. Ədəbi-bədii yaradıcılıqda mühüm rol oynayan təxəyyülün gücü onda ifadə edilmir ki, sənətkar həyati reallıqdan daha çox uzaq olan obrazlar yarada bilsin, əksinə yazıçının, rəssamın təxəyyülünün gücü onda ifadə edilir ki, onlar özlərinin həyati qavrayışlarını həyatın tələblərinə, özünün ideyasına uyğun bir şəkildə elə dəyişdirir, birləşdirir, yenidən işləyir ki, tamamilə yeni, əyani obrazlar yarada bilirlər. Ümumiyyətlə, insanın duyub və qavradıqlarının, psixikasında baş verənlərin hamısı izsiz ötüşmür, müəyyən mənada orada hifz olunur, bəzən ömürlük qalır. Keçmişdə baş verənlərin psixikada izi, əlamətləri, işarələri, kodu, sürəti mütləq qalır. İnsan psixikasının mühüm universal xüsusiyyətlərindən biri də informasiyanın fasiləsiz olaraq toplanması qabiliyyətidir. Bu proses psixi fəaliyyətin bütün dövr və sahələrini əhatə etməklə bir çox hallarda avtomatlaşır, hətta az qala qeyri-şüuri mahiyyət kəsb edir. Yaddaş və onun mexanizmləri qədim zamanlardan günümüzə qədər alimlərin maraq dairəsində olan və diqqət cəlb edən bir problemdir. Qeyd etmək lazımdır ki, psixologiyada yaddaşın funksional imkanlarını müəyyən edən bir neçə nəzəriyyələr formalaşmışdır. Bunlardan psixoloji, fizioloji, biokimyəvi, informasiya, koqnitiv və neyrofizioloji nəzəriyyələri qeyd etmək olar. Psixologiyada ən çox öyrənilmiş sahə olmasına baxmayaraq, yaddaş haqqında da hələ də qənaətlər yox dərəcəsindədir. İnsan yaddaşı ilə bədii yaradıcılıq fəaliyyəti arasındakı əlaqələri öyrənmək cəhdləri də çox olmuşdur.

Yaddaş üç mühüm prosesin nəticəsində yaranır. Onlardan birincisi yaddasaxlamadır. Bu prosesdə beynə daxil olan müxtəlif informasiyaların təhlili, identifikasiyası və kodlaşdırılması aparılır. Hafizə prosesinin ikinci mərhələsi informasiyanın hifz olunmasıdır. Prosesin üçüncü mərhələsi ixtiyari və ya qeyri-ixtiyari yadasalmadır. İnformasiyanın yada salınmasını haqlı olaraq yaddaşın əsas funksiyası, insanın öz təcrübəsindən istifadə edə bilməsinin əsası hesab edirlər. Ədəbiyyatla yaddaşın bağlantısının mahiyyəti sənətkarın özündə gizlidir. Məsələn, yazıçı bu və ya digər surəti yaratmaq üçün müşahidələr aparır, həyatda rastlaşdığı insanları, onların hərəkətlərini təhlildən keçirir, daha sonra müxtəlif adamlarda müşahidə etdiyi xüsusiyyətləri, əlamətləri birləşdirir.Hər bir xalqın milli-mənəvi irsini, əxlaqi dəyərlərini qoruyub saxlamaq, genetik yaddaşını, tarixi kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya onun taleyində müstəsna rol oynamış fenomenal şəxsiy-

yətlərin fəaliyyəti ilə bağlı olmuşdur. Tarix özündən sonra layiqli irs qoyub getmiş belə fenomen şəxsiyyətlərin əməlləri ilə zənginləşir, samballılıq qazanır. Millətin vahid məqsədlər uğrunda mübarizəsi üçün zəruri olan ideya - milli ideologiya da məhz belə şəxsiyyətlərin dünyagörüşünün əks olunduğu konsepsiyalarla reallığa qovuşur. Bu mənada, Yusif Səməd-oğlunun öz yaradıcılığında, bədii-estetik konsepsiyasında Azərbaycanın milli-mənəvi dəyərlər sistemini qoruyan, inkişaf etdirən və onu milli özünüdərkin həlledici amilinə çevirən fenomenal yazıçı kimi xalqımızın qəlbində yaşayır. Y.Səmədoğlunun mürəkkəb kompozisiyası ilə seçilən hər iki romanının mətnlərinin yaddaş strukturunda təqdimi nəzərə çarpır. Həm "Qətl günü", həm də "Deyilənlər gəldi başa.." romanlarında təhkiyəçi-qəhrəmanlar öz daxili dünyası, şəxsi yaddaşı ilə iç-içə təqdim olunur. Bu əsərlərin qəhrəman və personajları daima öz keçmişlərindən, yaddaşlarına yığılıb qalmışlardan, xatirə və artıq ötüb-getmiş anlardan bəhs etmək, bütün bunları oxucuya nəql etmək vəzifəsi daşıyırlar. Bu da bədii mətndə hadisələrin öz gerçək xronoloji ardıcıllığından uzaqlaşmasına, hadisələrin ənənəvi əvvəldən sona doğru gedişatına əks düzümünə səbəb olur. Məsələn, "Qətl günü" romanında istər mifoloji, istər etno-psixoloji yaddaş vasitəsilə daha qədim mətnlərlə əlaqələrin qurulmasının şahidi oluruq. Hətta bu bağ "Oğuz xaqan" dastanına qədər gedib çıxır. "Qətl günü" romanında dünyadakı bütün yaradılışları fövqəltəbii, qeyri-adi, fantastik şəklə salmaq funksiyası daşıyan mif ilə dünyada baş vermiş real hadisələrə əsaslanan tarixi həqiqətlər sintez olunur.

I fəslin ikinci yarımfəsli **"Yusif Səmədoğlu Azərbaycan ədəbiyyatının yaddaşında"** adlanır. Yusif Səmədoğlu və yaddaş arasında ikili münasibətlər var. Birincisi, Yusif Səmədoğlu ədəbiyyat yaddaşımızın məhək daşlarından biridir. İkincisi, yaddaş yazıçının yaratdığı ədəbiyyatın əsasını təşkil edir. Yusif Səmədoğlu haqqında tanınmış ədəbiyyat və incəsənət xadimlərinin xatirələri, məqalələri, nekroloqları bu böyük insanın bir şəxsiyyət, bir yazıçı kimi xarakterizə olunmasında müstəsna əhəmiyyətə malikdir. Bu cür mənbələrin sayı çox deyil. Lətafət Əliyevanın "Yusif Səmədoğlunun yaradıcılığı" adlı dissertasiyası, Tahirə Məmmədin "İki yol ayrıcında yazılmış roman", Vaqif Yusiflinin "Unudulmayan Yusif Səmədoğlu", "Nəsrin nur payı", Rəhilə Qeybullayevanın "Yusif Səmədoğlunun yaradıcılığında ölüm", İntiqam Qasımzadənin "Allahın nur payı", Südabə Ağabalayevanın "Yusifdən yazmaq çətindir" və s. məqalələrində Yusif Səmədoğlu yaradıcılığının müxtəlif aspektlərdən geniş və əhəmiyyətli təhlilləri verilmiş, Azərbaycan ədəbiyyatında tutduğu mövqe haqqında dəyərli fikirlər söylənmişdir.

Yusif Səmədoğlu haqqında tanınmış ədəbiyyat və incəsənət xadimlərinin xatirələrinin, məqalələrinin, nekroloqlarının toplandığı "Yusifli, Yusifsiz günlər" kitabı da yazıçının ədəbiyyatımızın yaddaşındakı yerinin xarakterizə olunmasında müstəsna əhəmiyyətə malikdir. Anar, Vaqif Səmədoğlu, Nəriman Həsənzadə, Tofiq Abdin, Afaq Məsud, Azər Abdulla, Kamil Vəliyev, Çingiz Abdullayev, Yaqut Dilbazi və başqalarının xatirələrində yazıçının şəxsi və ədəbi kimliyi haqqında maraqlı fikirlər söylənilir, ədib aristokrat və ziyalı, mərhəmətli, xeyirxah, eyni zamanda cəsarətli, qorxmaz, mehriban, gülərüz, həyatsevər insan kimi göz önündə canlandırılır. Tofiq Abdinin Yusif Səmədoğlu haqqında söylədiyi sətirlərdə deyilir ki, o,"ədəbiyyatda bir şeyi dəqiqləşdirdi: cild-cild yazı yazıb yazıçı olmaq olmaz. Bu dünyada bir Yazıçı, bir Sənətkar kimi qalmaq üçün çox yazmaq şərt deyil, gözəl yazmaq şərtdir"[1]. Kamil Vəliyev isə «Qətl günü» romanının məziyyətlərindən bəhs edərək yazır: "Həyatın və insanın bədii idrakı baxımından «Qətl günü» romanının ədəbiyyatımızda hadisə olması 60-cı illər nəsrinin yüksəlişini əks etdirən yeni bədii nailiyyət kimi oxucuları ürəkdən sevindirdi... Mifik zamanla, hardasa konkret və hardasa mücərrəd qədim zaman, yaxın tarixi keçmişlə müasir həyat üzvi şəkildə bağlanmışdır. Ayrı-ayrı zamanların dəyişməyən həqiqətlərini üzə çıxaran yazıçı insanın mənəvi dəyər meyarını: xeyir və şəri, işıq və zülməti, cəsarət və qorxaqlığı, ədalət və istismarı, gözəllik və eybəcərliyi, həyat və ölümü... canlı lövhələri unudulmaz insan xarakterləri ilə qarşı-qarşıya qoymuşdur. İşığın, xeyrin, cəsarətin tərəfində dayanan yazıçı idealı həyatın gözəlliyini, ölümsüzlüyünü təsdiq edir. Bu təsdiq böyük etiraf və sənətkarın bədii obrazlarla təsdiq etdiyi fəlsəfi düşüncələrinin yekunu kimi ibrətamizdir"[2]. Yusif Səmədoğlunu klassik ziyalı tipinin mükəmməl, nümunəvi təcəssümü kimi qiymətləndirən Arif Əmrahoğlu "Qətl günü" romanını yazıçının əbədiliyi adlandırır. Çingiz Abdullayev isə ədibin vətənpərvər, millətçi və prinsipial kimliyini gözlər önünə sərir.

Yusif Səmədoğlu bənzərsiz insan, yaradıcı ziyalı idi. Y.Səmədoğlunun yaradıcılığı təxminən yarım əsrə yaxın bir zaman çərçivəsini əhatə edir. Onun yaradıcılığının mahiyyətini dərk etmək üçün ədibin dövrünün ümumi ab-havasına nəzər yetirmək çox vacibdir. 1950-1990-cı illər ərzində Azərbaycan nəsri bir neçə mərhələdə inkişaf etmişdir. Y.Səmədoğlu "yeni nəsr" ədəbi məktəbinin nümayəndələrindən biridir, eyni zamanda müs-

---

[1] Yusifli, Yusifsiz günlər. Tərtibçi, ön sözün müəllifi S.Xəyal. Bakı: Nurlan, 2005, s.22.

[2] Yenə orada, s.106

təqillik dövrü Azərbaycan nəsrinin aparıcı simalarındandır. Yaradıcılığa hekayə ilə başlayıb roman ilə yekun vuran Y.Səmədoğlunun yaraıcılığında yaddaşın bədii-estetik səciyyəsinin və funksionallığının tam mənasında elmi-nəzəri izahı dövrün ədəbi mühitinin xarakterinə münasibət bildirmədən mümkün deyildir. Yaddaş Y.Səmədoğlu nəsrinin əsas səciyyəsidir, bu danılmazdır. Həmin səciyyəni formalaşdıran iki amili xüsusi qeyd etmək lazımdır: dövrün ədəbi mühiti və müəllif fərdiyyəti. Y.Səmədoğlunun bədii dünyasında yaddaşın bədii-estetik məzmunu məhz bu iki kateqoriyanın qarşılıqlı münasibətində anlam qazanır, mənalanır.

Birinci fəslin üçüncü yarımfəsli "**Yaddaş Yusif Səmədoğlu nəsrinin əsas səciyyəsi kimi**" adlanır. Yusif Səmədoğlunun bədii yaradıcılığının özünəməxsusluğunu və təkrarsızlığını şərtləndirən amillərdən birinin də məhz yaddaş məsələsinə dayandığını qeyd etmişdik. Onun roman və hekayələri fərqli ideya və kompozisiya xüsusiyyətləri, fərdi yaradıcılıq üslubu, özünəməxsus sənətkarlıq məziyyətləri, nəsr poetikasının mürəkkəbliyi və qeyri-adiliyi ilə seçilir. Milli-mədəni, tarixi-ictimai, mifopetik yaddaş onun əsərlərində ayrı-ayrı qatlar şəklində təzahür edir. Yusif Səmədoğlunun müxtəlif əsərlərinin bir-biri ilə mətnlərarası münasibətlərdə olmasını təmin edən məqamlardan biri də, onun roman və hekayələrində sənətə bağlılıq, ictimai nöqsanların tənqidi, milli-tarixi yaddaşa sadiqliyin, Azərbaycançılıq düşüncəsinin fəal yazıçı mövqeyindən bədii təcəssümünün güclü olmasıdır. Bu fikir yazıçının romanları, ”220 nömrəli otaq” (1960), ”Qalaktika” (1973) kitablarındakı hekayələri, bir qədər sonra çap etdirdiyi ”Astana”, ”İncə dərəsində yaz çağı” hekayələri haqqında da keçərlidir. Mövzuları, əsərlərinin quruluşu, mənzərə və obraz yaratma ustalığı, hadisələrin simvolik-məna yükünün qabartmaq bacarığı, vətənpərvərlik və insana məhəbbət duyğularının birbaşa ifadəsi şüuraltı qata enməklə təsvir orijinallığı nümayiş etdirən Y.Səmədoğlunun dil və üslub xüsusiyyətləri, fərdi yaradıcılıq keyfiyyətləri ilə seçilən bir nasir kimi yetişdiyini sübut edir. Yusif Səmədoğlunun müxtəlif əsərləri arasında mətn bağlantılarının mövqeyinin müəyyənləşdirilməsi, yazıçının bütöv yaradıcılığının mahiyyətini bir daha dərindən tanımağa kömək edir. O, hələ sosializm cəmiyyətinin, avtoritar rejimin ən sərt dövründə 1959-cu ildə "Yaddan çıxmış sözlər" novellasında, "Xəzri" hekayəsində cəsarətlə millətimiz üçün faciəvi mahiyyəti olan tarixi hadisələri qələmə almış, "Türkmənçay - 1828-ci il" müqaviləsini yada salmış, torpaqlarımızın iki yerə parçalanmasını Təbriz harayı kimi qələmə almışdır. Y.Səmədoğlu əsərlərində Azərbaycan həyatının mənəvi-ictimai-əxlaqi problemlərini, milli keyfiyyətlərlə bağlı məsələləri bədii gündəmə çıxarmışdır. Yazıçı "Deyilənlər gəldi başa" adlı

yarımçıq qalmış romanında son illərin – müstəqillik ərəfəsi və müstəqillik dövrünün ilk illərinin hadisələrini əks etdirmək cəhd göstərmiş, azərbaycançılıq mövqeyini bir daha ortaya qoymuşdur. Xalqın tarixi, milli-mental dəyərləri, mifoloji, etnik və poetik yaddaşı Y.Səmədoğlu yaradıcılığının əsas mövzularını təşkil edirdi.

Yusif Səmədoğlunun hekayələri onun sonrakı qeyri-adi roman yaradıcılığının başlanğıcı kimi olduqca dəyərlidir. "Soyuq daş"ın lirik təhkiyəsi, "Foto-fantaziya"nın sərt realizmi, həzin və kədərli poetik əhval-ruhiyyəsi ilə seçilən "Bayatı-Şiraz, "İncə dərəsində yaz çağı" hekayələri, psixoloji-ictimai ovqata köklənmiş "Astana" və başqa hekayələri, Azərbaycan nəsrində xüsusi çəkisi və yeri olan "Qətl günü", bitirməyə ölümünün imkan vermədiyi "Deyilənlər gəldi başa..." romanlarının bədii kamilliyini, Yusuf Səmədoğlu yaradıcılığının rəngarəngliyini, poetik çəkisinin ağırlığını anlamaq üçün yetərli mənbələrdir. Müəllifin yaradıcılığında bədii fantaziya, kifayət qədər geniş yaradıcı təxəyyüllə yanaşı, eyni zamanda real həyatda gördüklərinin, yaşadıqlarının, duyduqlarının, real təəssüratlarının da xüsusi yeri və önəmli payı vardır. Müəllifin fərdi yaşantılarının, şəxsi xatirələrinin yaddaşından süzülərək bədii mövzuya çevrilməsi baxımından "Gözlər", "Qartal" və "Güllər" hekayələrinin xüsusi əhəmiyyət daşıdığını qeyd etmək lazımdır. Bu üç hekayəni eyni müstəvidə və ya tədqiq kontekstində birləşdirən təkcə Yusif Səmədoğlunun müəllifliyi deyil. Belə ki, hər üç hekayənin bədii tematikasını müəllifin şəxsi xatirələri, ailəsi ilə bağlı xatirələrinin təşkil etməsidir. Hər üç hekayənin semantik izahının kilid açarı Azərbaycanın xalq şairi və Yusif Səmədoğlunun atası Səməd Vurğundur. Yazıçının yaradıcılığında fərdi yaddaşı ilə məxsus olduğu toplumun yaddaşı paralel şəkildə öz bədii təcəssümünü tapa bilir. Y.Səmədoğlu nəsrinin əsas kefiyyətlərindən biri də təcəssüm olunan yaddaşın müasirliklə sintezidir. Yusif Səmədoğlu müasir yazıçı idi. O məxsus olduğu ictimai-siyasi və sosial mühiti tam şəkildə qavrayırdı, dövrünün ab-havasını dərindən duyurdu. Y. Səmədoğlunun yaradıcılığında müasirlik daima tarixiliklə sintezdədir, vəhdətdədir. Ədəbiyyatın zənginləşməsində, onun tematik və süjet tükənməzliyində fərdi üslubun fundamental əhəmiyyəti vardır. Bu baxımdan müəllif fərdiyyəti Y.Səmədoğlu yaradıcılığının özünəməxsusluğunu təşkil edən əsas amilə çevrilir. "Hər bir mətnin müəllifi var. Deməli hər bir mətn konkret fərdi yaddaşın mətn şəklində ifadə olunmuş parçasıdır"[1]. Yusif Səmədoğlunun yaradıcılığında xüsusi rəng qatan əlamətlərdən biri də müəllifin

[1] Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Mütərcim, 2008, s. 187

yaşadığı dövrün tarixinin öz yaddaşındakı inikasını bədii mətnə ötürmək qabiliyyəti ilə bağlıdır. Müəllifin roman və hekayələrində yazıçının uşaqlıq və gənclik dövrlərinin koloritini yaddaşdan süzülüb mətnə axması səciyyəvi haldır. Y.Səmədoğlunun öz şəxsi yaddaşı əsərlərində hadisələrin zaman və məkan seçimində xüsusi rol oynayır. Zamanın və məkanın yaddaşı, daha aydın desək, müəyyən zaman mərhələsinin və hər hansısa məkanın özündə ehtiva etdiyi yaddaşın bədii mətndə oxucu tərəfindən aşkarlanması birbaşa müəllif ideyasının gerçəkləşməsi, müəllifin öz məqsədinə nail olmasıdır.

Dissertasiyanın **"Yusif Səmədoğlunun nəsrində yaddaşın tipologiyası"** adlı ikinci fəsli üç yarımfəsildən ibarətdir. **"Qətl günü" romanında mifoloji arxetiplər və folkor motivləri"** adlanın I yarımfəsildə əsas diqqət "Qətl günü" romanında mifologiya və ədəbiyyatın qarşılıqlı münasibətinə yönəldilib. Belə ki, bəşəriyyət öz inkişafı boyunca öz ilkin başlanğıcından nə qədər uzaqlaşsa da, insanların beyninin alt qatlarında - təhtəlşüurunda əski mədəniyyətdən çoxlu sayda simvollar daşıyır. Bu simvollar özlərini rəmzi-obrazlı formada təzahür etdirirlər ki, məhz bu təzahürləri də K.Q.Yunq "arxetip" adlandırırdı. Müxtəlif ədəbi dövrlərin və ədəbi şəxsiyyətlərin yaradıcılığında yazılı ədəbiyyatın müxtəlif zamanlarda mifologiyaya və folklora mürəkkəb, özünəməxsus formada dinamik müraciətinə rast gəlmək olur. Yusif Səmədoğlu nəsrinin unikal əlamətlərindən biri də məhz bu əsərlərdə mifopoetik yaddaşın müxtəlif mənşəli (dini, tarixi, ədəbi, mədəni) arxetiplərlə təzahür etməsidir. "Qətl günü" romanında mifopoetik yaddaşın üzə çıxmasını səciyyələndirən, mifoloji qatı ortaya çıxaran əlamət və motivlərin bir çoxu qurd arxetipində cəmləşmişdir. Birincisi, romanda canavar arxetipinin aradan neçə minilliklər keçməsinə rəğmən öz ilkin mənasını, başlanğıcda daşıdığı mifoloji məzmunu hələ də itirmədiyini görürük. Belə ki, canavar - qurd bu romanda insanlığın əcdadı, başlanğıcı, bəşəriyyətini ilkini ifadə edir. İkincisi isə, onlarla mif və əfsanə mətnində özünə yer tapmış qurdun sakrallığını, kult-totem kimliyini Y.Səmədoğlu deformasiya edir: Boz Qurd qotur canavara çevrilir. Dünyada nizamın bir parçası olan insan yaşadığı ağır ideoloji mühitdə ədaləti bərpa etmək üçün, sülhü, əmin-amanlığı yaratmaq üçün daim şər qüvvələrlə mübarizədə olmalıdır. Romanda canavar arxetipinin açılışı göstərir ki, əslində xeyir və şərin mübarizəsi bəşəriyyətin yaşı qədər (qurdun yaşı qədər) qədimdir. Romanda şər həmişə aparıcı qüvvədir, hər dəfə məmləkətin ən gözəl insanları məhv olur, şairlər edam olunur, kütləvi insan qırğınları baş verir. Romandakı ağac motivi ilə bağlı məqamların şərhindən aydın olur ki, roman mətni arxaik-epos yaddaşının təzahür for-

ması kimi çıxış edir. “Kitabi-Dədə Qorqud”, “Oğuz Xaqan” dastanlarında və dolayısı ilə də qədim Şumer-Akkad mətnlərində yaradılış aktı, sakral başlanğıc, müqəddəs himayədar kimi funksionallıq daşıyan ağac obrazı ilə sələf-xələf münasibətləri yaradır. Hər səhifəsində tükənməz yazıçı fantaziyasının, unikal fikir və ideyaların cəmləşdiyi “Qətl günü” romanının bütöv məzmununun, müəllif ideyasının dərki, mətnin ötürdüyü mesajların açılması üçün əsərin mifopoetik qatını müəyyənləşdirmək lazım gəlir. “Qətl günü” romanında dünyadakı bütün yaradılışları fövqəltəbii, qeyri-adi, fantastik şəklə salmaq funksiyası daşıyan mif ilə dünyada baş vermiş real hadisələrə əsaslanan tarixi həqiqətlər sintez olunur. Yusif Səmədoğlunda mifopoetik düşüncənin sahəsinə düşən miflər öz ilkin başlanğıcında olduğu kimi “təmiz” deyil, bu miflər saf irreal strukturunu real, məntiqəuyğun çalar və rənglərə bürünməklə qismən pozmuş olur. Mifopoetik qat bu romanın əsas məğzini təşkil edir, əsasən arxetip və motivlərlə gerçəkləşir.

II fəslin ikinci yarımfəsli **“Y.Səmədoğlunun hekayələrində milli-etnik şüur və tarixi yaddaş”** adlanır. Millət olaraq mövcudluğun və var olmanın fasiləsizliyi və dinamikliyi yaddaşla təmin olunur. Millətin daha böyük müstəvilərdə öz mövqeyini sərgiləmək, tarixi-etnik kimliyini təsdiqləmək üçün daim öz yaddaşını qorumaq kimi bir borcu var. Yusif Səmədoğlu hələ, sovet rejiminin sərt illərində belə, milli-etnik şüur və tarixi yaddaşımızın bədii inikasında cəsarətli addımlar atmış bir yazıçıdır. Onun əsərlərində tarixi yaddaşımız və milli-etnik kimliyimiz bəzən aşkar, bəzən simvol və işarələrə bürünmüş şəkildə təzahür edir.

Y.Səmədoğlu 1959-cu ildə "Xəzri” hekayəsində cəsarətlə Vətənimiz üçün faciə olan mühüm tarixi hadisəni qələmə almışdır. Yusif Səmədoğlunun, coğrafi şərtlərdə qeyri-mümkün görünən təbiət hadisəsini bədii metoforik üsulla “Təbrizdə Xəzri əsdirməsinin” əsasında Cənubi və Şimalı Azərbaycan arasındakı milli-mənəvi doğmalığı, tarixi-etnik vəhdəti üzə çıxarmaq cəhdi dayanır. Yusif Səmədoğlunun yenə 1959-cu ildə yazdığı başqa bir hekayədə, "Yaddan çıxmış sözlər” də üç cavan, üç subay, üç yaraşıqlı oğlanın “söz oyun”undan bəhs olunur. Vaxtı əyləncəli keçirmək naminə üç nəfərin öz aralarında zarafatyana qurduqları oyun yaddan çıxmış, lap az-az işlədilən sözlərin xatırlanması məqsədi daşıyır. Taxikardiya, adiafon, epilepsiya kimi sözlərin xatırlanmasından sonra, oyun iştirakçılarından birinin “Türkmənçay..1828-ci il” deməsi ilə oyun bitir. Hekayədə hamının yaddan çıxardığı iki söz kimi təqdim edilən bu kəlmələrdən sonra üç nəfərin üzü bir daha gülmür. Bir xalqın keçmişini, tarixini, milli-mənəvi yaralarını təxminən bir səhifəlik hekayəyə sığışdırmaq bədii ustalıq tələb edir. Yusif Səmədoğlu sənətkarlığının əsl gücü

məhz belə məqamlarda özünü göstərir. Milli-mənəvi yaddaşın qabarıq şəkildə öz təzahürünü tapdığı hekayələrdən biri də “220 nömrəli otaq” hekayəsidir. Romantik gənclik dövrünü yaşayan hekayə qəhrəmanlarının əqidə müxtəlifliyi dövrün mənəvi-sosial və siyasi mənzərəsi ilə üst üstə düşür. Tardan imtina, mədəni irsdən, etnik yaddaşdan imtina kimi təqdim olunur, milli özünüdərkin qarşısında duran maneəyə çevrilir. Tarla bağlı məqam oxucunu ötən əsrin əvvəllərinə yönəldə bilir. Yazıçının məqsədi 1930-cu illərdə Süleyman Rüstəmə “oxuma tar, səni başa düşmür proletar..”, Mikayıl Müşfiqə “Oxu tar, səni kim unudar” şeirlərini yazdıran rejimin iç üzünü bütün gerçəkliyi ilə ifşa etmək, bədii sözün təsiredici gücündən yararlanmaqla sosializmin eyni mahiyyətdə ötən əsrin ortalarında da davam etdiyini göstərməkdən ibarətdir. Y.Səmədoğlunun “Qətl günü” romanından öncə yazdığı “İncə dərəsində yaz çağı”, “Bayatı-Şiraz”, “Astana” hekayələrini birləşdirən ortaq cəhətlər vardır. Bunlardan ən ümdəsi hər üç hekayənin müxtəlif planlarda “Qətl günü” romanının yazılmasında hazırlıq mahiyyəti daşımasındadır. Belə ki, adı çəkilən hekayələrlə “Qətl günü” romanı arasında müxtəlif istiqamətli bağlantılar var: mövzu, obraz, zaman-məkan və s. kateqoriyalarda bağlılıq özünü göstərir. Romanın ideya-məzmun qatının əsasında dayanan Xeyir və Şər probleminin bünövrəsi, rüşeymləri qeyd edilən hekayələrlə başlayır.

Ümumiyyətlə, məxsus olduğu xalqın milli-mənəvi irsini, mental-əxlaqi dəyərlərini qoruyub saxlamaq, genetik yaddaşını, tarixini bədii ədəbiyyat vasitəsilə sonrakı nəsillərə ötürmək kimi çətin missiyanın öhdəsindən gələn yazıçı və şairlər həmin xalqın yaddaşında əbədi olaraq yaşamaq hüququ qazanırlar. Yusif Səmədoğlu hələ yaradıcılığının ilk dönəmlərində, əlverişsiz siyasi mühitdə, yüksək ustalıqla, bədii məharətinin gücündən yararlanmaqla xalqının milli-mənəvi yaddaşını, mental özünəməxsusluğunu yaradıcılığında hifz edə bilmişdir.

II fəslin üçüncü yarımfəsli “**Y.Səmədoğlunun əsərlərində ədəbi mətn yaddaşı**” adlanır. Yusif Səmədoğlunun roman və hekayələrində ədəbi mətn yaddaşı qarşımıza iki şəkildə çıxır. Birincisi, mətn mədəniyyətinin sərhədsizliyi amili ilə əlaqədar olaraq, müəllifin istənilən mətni özünəqədər mövcud mətnlərlə müəyyən bağlantı qura bilir. Bu özünü mətnin müxtəlif qatlarında büruzə verə bilir. Məsələn, “Qətl günü” romanında istər mifoloji, istər etno-psixoloji yaddaş vasitəsilə ilə daha qədim mətnlərlə əlaqələrin qurulmasının şahidi oluruq. Hətta bu bağ “Oğuz xaqan” dastanına qədər gedib çıxır. Yusif Səmədoğlu nəsrinin dəbdəbəsi məhz hekayə və romanlarında gizlənən ədəbi mətn yaddaşının əhatə dairəsi ilə ölçülür. Bu nəsr ağıllı və düşünən oxucuya ünvanlanır, özünü izah tələb

edir, xatırlama və yadasalmaları labüdləşdirir. Oxucu oxuduğu mətnlərdə gizlənmiş ədəbi mətnləri üzə çıxarmaq missiyasını yerinə yetirmədən Y.Səmədoğlunu tam olaraq dərk edə bilmir. Həm folklordan, həm də yazılı ədəbiyyatdan gələn bu ədəbi mətnləri yaddaşında axtarmaq və tapmaq vacib hal alır. Y.Səmədoğlunun yaradıcılığı bir çox ədəbi-bədii düsturları özündə saxlamaq qabiliyyəti ilə seçilıir. Bəzən bu düsturların açılışı müxtəlif mətnlərin kontekstində baş tutur. Onun yaradıcılığı ilə müxtəlif şəkillərdə bağlantısı olan mətnlərin bəzisi lap uzaq keçmişə, bəzisi isə lap yaxın dövr ədəbiyyatına aiddir. Bu yarım fəsildə Y.Səmədoğlunun yaradıcılığı ilə "Kitabi-Dədə Qorqud", "Avesta", "Oğuz xaqan" mətnləri ilə, M.Bulqakovun, Çingiz Aytmatovun, Markesin, Hüseyn Cavidin, Cəlil Məmmədquluzadənin və başqalarının yaradıcılığı arasındakı ortaq məqamlara diqqət yetirilmişdir. Məsələn, "Qətl günü" romanı ilə səsləşən Azərbaycan ədəbiyyatı nümunələri arasında xüsusi yeri C.Məmmədquluzadənin "Ölülər" əsəri tutur. Cəlil Məmmədquluzadənin 1909-cu ildə yazdığı 4 məclis və 5 pərdədən ibarət "Ölülər"in də əsas problem ölülərin dirilməsi yox, dirilərin "ölümüdür". "Ölülər" tragikomediyası cəhalət və mövhumat əsarətindən xilas olmaq üçün yazılmış, bütövlükdə türk dünyasında, o cümlədən, Azərbaycanda mənəvi buxovları, əsarəti, fanatizmi, cəhaləti böyük cəsarətlə yıxıb uçuran, son dərəcə dərin təsir gücünə malik, dahiyənə bir əsərdir. Əsərdəki Kefli İskəndər obrazı, ziyalı təbəqənin ümumiləşdirilmiş obrazıdır. İskəndər ətrafda olan hadisələri dərindən dərk edir, insanlara başa salmağa, gözlərini açmağa çalışır, lakin fanatizmin dərin girdabına düşmüş insanlar onu anlamaq səviyyəsində deyil. C.Məmmədquluzadə yaradıcılığında dirilərin ölümü sarkazmı Y.Səmədoğlu yaradıcılığında ölülərin dirilməsi şəklində davam edir. Dramaturgiyada ifrat cəhalətin və fanatizmin qurbanı olan dirilər nəsrdə cəmiyyətin və ideologiyanın yaratdığı "ölü" dirilər şəklində transformasiya olunur.

Yusif Səmədoğlu yaradıcılığında ədəbi mətn yaddaşının digər bir forması isə, müəllifin öz mətnləri arasındakı münasibətlərdə özünü göstərir. Müəllifin roman və hekayələri arasında qəribə bir bağlantı var, bu mətnlərin demək olar ki, böyük qismi biri digərinin əvvəli və sonu kimi çıxış etmək qabiliyyətinə malikdirlər. Bu bağlantı bəzən bir mətnin personaj və obrazlarının digər mətndə qarşımıza çıxması ilə xarakterizə olunur. Məsələn, feldşer Mahmud həm "Qətl günü" romanının, həm də "İncə dərəsində yaz çağı" hekayəsinin əsas personajlarından biridir. Yusif Səmədoğlunun müxtəlif əsərlərinin bir-biri ilə mətnlərarası münasibətlərdə olmasını təmin edən məqamlardan biri də, onun roman və hekayələrində sənətə bağlılıq, ictimai nöqsanların tənqidi, milli tarixi yaddaşa sadiqliyin,

Azərbaycançılıq düşüncəsinin fəal yazıçı mövqeyindən bədii təcəssümünün güclü olmasıdır. Bu fikir yazıçının romanları, ”220 nömrəli otaq” (1960), ”Qalaktika” (1973) kitablarındakı hekayələri, bir qədər sonra çap etdirdiyi ”Astana”, ”İncə dərəsində yaz çağı” hekayələri haqqında da keçərlidir.

Dissertasiyanın III fəsli **“Y.Səmədoğlu nəsrində yaddaşın bədii imkanları”** adlanır və üç yarımfəsildən ibarətdir. **“İncə dərəsində yaz çağı” hekayəsinin zaman və məkanının təşkilində yaddaşın rolu”** adlanan I yarımfəsildə göstərilir ki, Y.Səmədoğlunun hekayə və romanlarında maraqlı, eyni zamanda mistik-fantastik çalarları olan mətn xronotoplarına rast gəlmək olur. Bunlardan Baba Kaha, Sarı Hamam kimi sehrli-mistik məkanlar, 220 nömrəli otaq, xəstə ziyalının xəstə yatdığı otaq kimi qapalı məkanlar, qədim tarixi şəhərlər (Dərbənd), dünya şəhərləri (Moskva, Luksor) və sovet dönəmi durğunluq dövrünün Bakısını misal çəkmək olar. Bu məkanlar həm də zamanı ifadə edir. Yazıçının hekayələri öz yığcam təhkiyəsi, lakonik bədii təsvir vasitəsi ilə zamanın tələblərinə cavab verir, sosial gerçəkliyi, həyat tərzini, mənəvi dünyanı, insanların duyğu və düşüncələrini özünəməxsus şəkildə inikas etdirir. Həcm etibarilə kiçik olmasına baxmayaraq, yaxşı hekayə çox vaxt ifadə etdiyi fikirlərə, təsvir etdiyi hadisələrə və toxunduğu bədii mətləblərə görə romanlarla müqayisə edilə bilir. “İncə dərəsində yaz çağı” hekayəsində elə bədii sərlöhvədən göründüyü kimi “yaz çağı” və “İncə dərəsi” müvafiq olaraq bədii zaman və məkan funksiyasında çıxış edirlər. Hekayəni yeni oxumağa başlayan oxucu təxmini proqnozlar yürüdə bilir: hekayədə hadisələr “İncə dərəsi” deyilən coğrafi məkanda, yaz fəslində baş verir. Burada məkanın kifayət qədər konkret koordinatlara malik olmasına rəğmən, zaman bir qədər mücərrəd səciyyə daşıyır. Oxucu hekayənin oxunuşu boyu özü üçün hansı tarixi dövrün yaz çağından bəhs edildiyini aydınlaşdırmaq məsuliyyəti daşıyır. Hadisələrin baş vermə zamanını müəyyənləşdirmək, həm də, mətnin ümumi məğzini aşkarlamaq deməkdir. Oxucunu mətn daxilində düşündürmək, düşündürə bilmək Yusif Səmədoğlunun qeyri-adi yaradıcı təxəyyülünün və poetik gücünün nəticəsi kimi qəbul edilməlidir. Yusif Səmədoğlunu haqqında bəhs olunan hekayəsi “60-cılar ədəbiyyatı” deyilən ədəbi prosesinin nümunəsi hesab edilir. Milli xüsusiyyətlərin, milli keyfiyyətlərin, milli ruhun, adət-ənənələrin yaşanmasında bu dövr bədii ədəbiyyatının böyük rolu var. Bu baxımdan da Y.Səmədoğlunun əsərlərində milli ideyanın təlqin və təbliği mühüm əhəmiyyət kəsb edir. Yazıçı hələ sosializm cəmiyyətinin, avtoritar rejimin ən şiddətli çağlarında sovet ideologiyasının prinsiplərinə zidd olan əsərləri ilə seçilirdi. Yazıçının əsərləri azərbaycançılıq ideyası əsasında qurulduğundan hər dövr üçün

aktuallığını qoruyur. Bu aspektdən yanaşdıqda "İncə dərəsində yaz çağı" hekayəsinin müəllif zaman və məkan koordinatlarını xronoloji olaraq 1960-70-ci illər və hələ də öz statusunu qorumaqda olan sovet cəmiyyəti təşkil edirdi. Müəllifin bədiiləşdirdiyi hadisələr də təxminən eyni dövrü əhatə edir. Ədəbiyyatımızın hekayə janrının təkamül tarixində xüsusi çəkisi olan "İncə dərəsində yaz çağı" hekayəsində yaddaş vasitəsilə xronotopun müəyyənləşməsi mətnin bədii-estetik kamiliyyinin birbaşa üzə çıxmasına şərait yaradır. Xronotopun mətnin bədii modelində gizlənən simvolik yükünün aşkarlanması hekayənin bədii məzmununun, mövzu dərinliyinin, bədii probllematikasının doğru şərh olunmasına səbəb olur.

III fəslin ikinci yarımfəsli **"Deyilənlər gəldi başa" romanında məkan yaddaşı" adlanır.** Ədəbi-nəzəri fikirdə və tənqiddə romanın yarımçıq qalmasını qəbul edənlər və etməyənlər var. Romanın öz məzmununu tamamlamaq və oxucu üçün bədii nəticələrini əhatə edə bilmək qabiliyyətini müşahidə edən Tahirə Məmməd onu "İki yol ayrıcında yazılmış roman" adlandırır[1]. Romanın natamamlığının nisbi olduğunu, roman mətninin müxtəlif yönlü təhlillərə açıqlığını və sətiraltı mənalarının çoxluğunu müəllifin qoyduğu üç nöqtəni oxucuların oxuya bilməsinə şərait yaratdığını bugün bir çox ədəbiyyatşünaslar qəbul edirlər. Y.Səmədoğlunun mistik ab-havası və mifopoetik gücü daha çox olan əsəri məhz "Deyilənlər gəldi başa" romanıdır. Roman mətnində gizli qatları və layları ortaya çıxarmaq nəzəri təhlil və ədəbi şərhdən güclü səriştə, intellektual təcrübə tələb edir. Romanda az qala hər bir ad – obraz adlarından tutmuş ən xırda əşyaların adlarına qədər özündə, keçmişə və müasirliyə dair konkret mətnlərin yaddaşını daşıyır. Bu baxımdan romanda məkan adları xüsusi potensiala malikdir. XX əsr Azərbaycan ədəbiyyatının strukturunun mifopoetika ilə əlaqələrini araşdıran Pərvanə İsayeva yazır ki, bu roman "..elə ilk səhifələrindən diqqəti xronotopun mifoloji mahiyyətinə yönəldir... Romanda xronotop "mifoloji potensialı" gerçəkləşdirən ən vacib kateqoriyalardan biridir"[2]. P. İsayeva romanda bu cür obyektlərin öz ilkin funksiyalarını dəyişərək konkretləşməsindən bəhs edir. Sarı hamamın mistik yükünü o biri dünya ilə gerçək maddi – var olan bu dünyanın sərhəd məkanı olması ilə izah edir. Sarı hamam xtonik səciyyəsi daşıması bu baxımdan xüsusi önəm kəsb edir. Xtonik məkan özlüyündə dönərgəliyi ifadə edir. Dönərgəlik dünyalar arasında sərhədə işarə edir. Dönərgə təbiətli

---

[1] Tahirə Məmməd . İki yol ayrıcında yazılmış roman // "Azərbaycan" jurnalı, 2005, № 12, s.26.

[2] İsayeva Pərvanə. Mifopoetika və XX əsr Azərbaycan ədəbiyyatının poetik strukturu. Bakı, 2015, s.201.

varlıqların ən çox olduqları yer funksional pozulmanı rəmzləndirərək "köhnə", "yarımçıq" kimi anlaşılan dəyirman, qalaça, qəbiristanlıq və s. kimi yerlərdir. Həmin diffuz zonalar həm dönərgə varlıqların olduğu yer, həm də onlarla təmas yeri ola bilir. Romanda Cavadovun bacısı oğlunun, gənc qızın məhz sarı hamama aparılması da qədim mifoloji mətnlərlə səsləşir. Türk xalq inanclarına görə də adamla düşmən olan cinlər insan donuna düşüb aldatdıqları kimsələri xarabalığa, köhnə dəyirmana və ya çöllü-biyabana aparır. Cavadovun bacısı oğlu camaat arasında yayılan söz-söhbətə inanaraq xəzinə tapmaq ümidilə Sarı hamama yollanır və oradan qeybə çəkilir. Səməndərin Sərdarbabalı ocağının sonbeşiyini, on beş yaşında intihar etmiş qızın kaman sədaları altında rəqs etdiyini də Sarı hamamda görür. "Tarixi abidələr, qədim şəhərlər, gizli və əsrarəngiz məkanların və s. mövcudluq müddəti və yaşından asılı olaraq, sabit və dəyişməz vəziyyətdə olmalarına rəğmən, onlar keçmiş zamanlar, qədim dövrlər haqqında çox güclü yaddaşa malik olurlar. Daha doğrusu, öz müşahidəçilərinin yaddaş və tarixi bilgi potensialını oyatmağa sövqedici funksionallığa mailkdirlər. Tarixin dərinliklərinə yolçuluq etməyə, paralel zamanlar arasında get-gəlmələr yaşamağa şərait yaradırlar. Bu nöqteyi-nəzərdən yanaşsaq, müasir Azərbaycan nəsrinə dair bir çox əsərlərin mövzu seçiminin əsasən qədim abidələr, qədim əlyazmalar, məqbərələr və s. ətrafında dövr etməsininin mətn daxili geridönümləri də aktuallaşdırdığının şahidi oluruq"[1]. Y.Səmədoğlu yaradıcılığında xronotoplar təkcə, mətnin zamanda və məkanda təşkilini səciyyələndirmir, eyni zamanda müəllif və oxucu yaddaşının oyanmasında bədii-estetik funksiya daşıyır.

III fəslin üçüncü yarımfəsli **"Y.Səmədoğlunun hekayələrinin kompozisiya tərtibində yaddaşın rolu"** adlanır. Üçüncü yarımfəsildə Y.Səmədoğlunun hekayələrinin kompozisiya tərtibində yaddaşın roluna münasibət bildirilir. Y.Səmədoğlunun "Astana" (1978) hekayəsi "Ölüm var ölümdü, ölüm də var zülümdü" el sözü ilə başlayır. Hekayəyə qəflətən giriş edən müəllif oxucunu həyəcanlandırır. Hadisələrin təsvirini yaratdığı personaja həvalə edir. Bu xarakterin şüurundan keçənləri oxumağa başlayan oxucu əvvəlcə çətinlik çəkir. Hadisələrin baş vermə ardıcıllığı və ya nizamını tuta bilmir. Bir qədər keçdikdən sonra məsələ aydınlşaır. Y.Səmədoğlu bilərək seçdiyi bədii priyom işə yarayır. Hadisələr ənənəvi ardıcıllıqda deyil, əksinə düzülür: sondan əvvələ. Bunu personajın öz

---

[1]Yaqubova M. Müstəqillik dövrü Azərbaycan nəsrində retrospeksiya.fil.ü.f.doktoru elmi dərəcəsi almaq üşün təqdim edilmiş dissertasiya. Əlyazması hüququnda. Bakı, 2012, s.52.

yaddaşını paylaşması ilə aşkara çıxarırıq. Hekayənn əvvəlində özünün harada olduğunu müəyyən etməkdə ciddi çətinlik çəkən personajın psixoloji əhval-ruhiyyəsini anlamaq lazım gəlir. Hadisələrin təsvirini yaratdığı personaja həvalə edir. Bu xarakterin şüurundan keçənləri oxumağa başlayan oxucu əvvəlcə çətinlik çəkir. Hadisələrin baş vermə ardıcıllığı və ya nizamını tuta bilmir. Bir qədər keçdikdən sonra məsələ aydınlaşır. Y.Səmədoğlu bilərək seçdiyi bədii priyom işə yarayır. Hadisələr ənənəvi ardıcıllıqda deyil, əksinə düzülür: sondan əvvələ. Bunu personajın öz yaddaşını paylaşması ilə aşkara çıxarırıq. Hekayənn əvvəlində özünün harada olduğunu müəyyən etməkdə ciddi çətinlik çəkən personajın psixoloji əhval-ruhiyyəsini anlamaq lazım gəlir. Personajın yaddaşındakı hadisələrin epizodik təsviri və gərgin-emosional təhkiyə hekayənin əsas ideya-məzmununu anlamağı bir qədər gecikdirir. Hekayənin başlığı kimi verilən astananın mahiyyəti tədricən çözülür. Qəhrəman həyatınının ən böyük və ən mürəkkəb astanasında dayanıb. Bircə addım atsa, astananı keçəcək. Y.Səmədoğlu intellektini ən bariz şəkildə tərənnüm edən bu hekayədə hadisələr arasında məntiqi əlaqəni tapmağa kömək edən deyimlər var. Bu deyimlər sayəsində hekayə qəhrəmanının 43 illik ömrünün uşaqlıq və gənclik illərinə, bugününə səbəb olan hadisələrə gedib çıxmaq mümkündür.

Y.Səmədoğlunun "Qalaktika" hekayəsində də yaddaş həm mətnin qurulmasında, həm də oxucu tərəfində drəkində yaxından iştirak edir. "Foto-fantaziya" hekayəsində də təhkiyə əsas personaj–Sadıqın aldığı teleqramla başlayır. Tədricən keçmişə doğru hadisələrin təsviri başlayır. Hekayənin mövzusu ailə-məişət, əxlaq dəyərlərinin pozulması, insanların insan kimi öz xarakterini itirməsi təşkil edir.

**Nəticə** hissəsində tədqiqat mövzusu ilə bağlı disertasiyanın ayrı-ayrı fəsillərində irəli sürülmüş müddəalar və əldə edilmiş nəticələr ümumiləşdirilir. Göstərilir ki, Yusif Səmədoğlu Azərbaycan nəsrinin yeni mərhələ inkişafında xüsusi rol oynayan yazıçılardan biridir Y.Səmədoğlu təxminən yarıməsrlik yaradıcılıq dövründə XX əsr Azərbaycan nəsrinin müxtəlif mərhələlərindən keçmişdir. Bütün bu mərhələlərin əsas xüsusiyyətləri və bədii-estetik koloriti onun yaradıcılığında öz əksni tapa bilmişdi. Yaddaş bədii-estetik kateqoriya kimi yazıçının yaradıcılığında ümumi xətt kimi keçmiş, hekayədən başlayıb romanda bitən Y.Səmədoğlu bədii irsinin tədqiqi bu nöqteyi-nəzərdən də çox vacibdir. Milli-mədəni, tarixi-ictimai, mifopetik yaddaş onun əsərlərində ayrı-ayrı qatlar şəklində təzahür edir. Yusif Səmədoğlunun yaradıcılığının müxtəlif mərhələlərində yazdığı romanları və hekayələri - "Xəzri", "Yaddan çıxmış sözlər", "Gözlər",

“Qartal”, “220 №-li otaq”, “Güllər”, “Saat işləyir”, “Simurq quşu”, “Qalaktika”, “Soyuq daş”, “Beşik”, “46-cı ilin oyunları”, “Foto-fantaziya”, “Astana”, “Bayatı-şiraz”, “İncə dərəsində yaz çağı” hekayələri və “Qətl günü”, “Deyilənlər gəldi başa..” romanlarının mətnləri yaddaş nöqteyi-nəzərindən, bədii ədəbiyyatda yaddaş anlayışı kontekstində, yaddaşın bədii-estetik səciyyəsi və xüsusiyyətlərinin təhlili baxımından güclü mənbədir. Yusif Səmədoğlu və yaddaş arasında ikili münasibətlər var. Birincisi, Yusif Səmədoğlu ədəbiyyat yaddaşımızın məhək daşlarından biridir. İkincisi, yaddaş yazıçının yaratdığı ədəbiyyatın əsasını təşkil edir. Y.Səmədoğlu nəsrində yaddaşdan istifadənin bədii-estetik funksionallığı müəllif fərdiyyəti ilə birbaşa bağlıdır. Yusif Səmədoğlu öz yaradıcılığında, bədii-estetik konsepsiyasında Azərbaycanın milli-mənəvi dəyərlər sistemini qoruyan, inkişaf etdirən və onu milli özünüdərkin həlledici amilinə çevirən fenomenal yazıçı kimi xalqımızın qəlbində yaşayır.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:**


1. Mifopoetika bədii mətndə yaddaşın təzahür forması kimi (Yusif Səmədoğlunun “Qətl günü” romanında canavar arxeipi) // Beynəlxalq elmi-nəzəri jurnal, Dil və ədəbiyyat, 2013, № 4 (88) s. 138-142.
2. Yusif Səmədoğlunun “Qətl günü” romanında ağac motivi / Bakı Slavyan Universiteti, Azərbaycanşünaslığın aktual problemləri Ümumimilli Lideri Heydər Əliyevin anadan olmasının 91 ildönümünə həsr olunmuş V Beynəlxalq Elmi Konfransın Materialları, Bakı, 2014 (05-07 may), s. 220- 222.
3. Yaddaş Yusif Səmədoğlu nəsrinin əsas səciyyəsi kimi / Azərbaycan xalqının Ümumimilli Lideri Heydər Əliyevin anadan olmasının 91 illiyinə həsr olunmuş Gənc tədqiqatçıların III Beynəlxalq Elmi Konfransının Materialları. Bakı, 2014 (18-19 aprel), 2014, s. 263-264
4. Y.Səmədoğlunun “Qətl günü” romanında arxaik epos yaddaşı: ağac motivi // Beynəlxalq elmi-nəzəri jurnal, Dil və ədəbiyyat, 2014, № 3(91), s. 158-161.
5. Y.Səmədoğlunun “İncə dərəsində yaz çağı” hekayəsində xronotopun bədii estetik funksiyası // Sumqayıt Dövlət Universiteti Elmi xəbərlər, 2015, №2, cild 11, s. 6-11.
6. Yusif Səmədoğlu yaradıcılığında ədəbi mətn yaddaşı / Azərbaycan xalqının Ümumimilli Lideri Heydər Əliyevin anadan olmasının 92 illiyinə həsr

edilmiş Gənc tədqiqatçıların III Beynəlxalq Elmi Konfransının Materialları. Bakı, 2015 (17-18 aprel), s. 911-912.
7. Kitabi-Dədə Qorqud dastanı və müasir Azərbaycan nəsri (Yusif Səmədoğlunun "Qətl günü" romanı əsasında) / Sumqayıt Dövlət Universiteti Kitabi-Dədə Qorqudun tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları, Sumqayıt, 2015, s. 240-242.
8. Yusif Səmədoğlu nəsrində etnolinqvistik yaddaş / Sumqayıt Dövlət Universiteti Müasir dilçiliyin aktual problemləri, Beynəlxalq elmi konfransın materialları, Sumqayıt, 2015 (24-25 noyabr), s. 151-152.
9. Y.Səmədoğlunun hekayələrində mətn yaddaşı // "Poetika.izm" jurnalı, 2016, №2, s.98-108.
10. Память мифоэпического текста и фольклором в современной прозе (на материале романа Ю.Самедоглу «День Казни») // Науково-виробничий журнал ДЕРЖАВА ТА РЕГІОНИ.Серія: Гуманітарні науки .Класичний Приватний Университет, 2016, № 1-2, с. 3-8.
11. The artistic reflection of national-moralmemory in Yousif Samadoglu`s creativity // International Journal of Science and Research (IJSR) ISSN (online) 2319-7064, January 2017, volume 6, Issue 1, p. 2122-2124.

**Лейла Аллахкулу кызы Алиева**

**ХУДОЖЕСТВЕННО - ЭСТЕТИЧЕСКАЯ ФУНКЦИЯ ПАМЯТИ В ПРОЗЕ ЮСИФА САМЕДОГЛУ**

**РЕЗЮМЕ**

В представленной диссертации говорится о творчестве Ю.Самедоглу, которое отличается своей открытостью разнонаправленным исследованиям и методологическим подходам и сильной художественной концепцией, что является его основной преимущественной особенностью. Произведения этого автора могут дать достаточный материал и с точки зрения проблемы памяти в художественной литературе и художественной литературе созданной памятью. Следует отметить, что одним из характерных признаков способствующих определению самобытного места писателя в литературе является его индивидуальная память. Память играет своеобразную роль сокровищницы писателя. Все что пережил, увидел, узнал, услышал или прочитал писатель, все это скапливается в этой сокровищнице – памяти. Национальная память, литературная память, историческая память составляют отдельные пласты авторской памяти. В процессе творчества, в период зарождения художественного произведения писатель пытается донести до читателя то, что накопилось в его памяти. Писатель, умеющий мастерски использовать силу художественного слова может с успехом перевести в художественное произведение то, что выбрал из своей памяти и даже больше перевести в художественный текст все, что хранит в памяти. Ю.Самедоглу за полувековой период творчества прошел через различные этапы азербайджанской прозы XX века. В нем нашли свое отражение все особенности и художественно-эстетический колорит каждого из этих этапов. Память как художественно-эстетическая категория прошла красной линией через все творчество писателя. С этой точки зрения изучение художественного наследия Ю.Самедоглу начиная рассказами и заканчивая романом очень актуально. Национально-культурная, общественно-историческая и мифо-эпическая память прослеживаются отдельными пластами в произведениях писателя.

Объектом исследования являются романы и рассказы Юсифа Самедоглу написанные им в различные периоды творчества в рассказах «Хазри», «Забытые слова», «Глаза», «Орел», «Комната №220», «Цветы», «Часы идут», «Птица Симург», «Галлактика», «Холодный камень», «Колыбель», «Игры 46-го года», «Фото-фантазия», «Начало», «БАяты-Шираз», «Весна в долине Индже», а так же в романах «День казни» и «Предсказанное сбылось». Диссертация состоит из введения, трех глав

подразделенных на соответствующие разделы, заключения и списка использованной литературы.

**Leyla Allahgulu gizi Aliyeva**

## SUMMARY (ARTISTIC ETHETHIC FUNCTION OF MEMORY IN Y.SAMEDOGLU'S PROSE)

## SUMMARU

In the dissertation is noted that the activity of Y.Samadoglu is choosen by its different directions research and very strong, clear, literal conseption to the methodological approach, and it regards the main features of it. According to memory in literal literature or literal literature made by memory, the traces of writer can give rather valuable materials. Generally, individual memory is one of the typical features of the taking a place in writer's literature history. Memory plays role as a treasure of writer. All what writer lives, sees, knows, hears, reads are collected in the treasure. National memory, literal memory, historical memory organise separate levels of author memory. In the process of creating, appearing period of literal trace the writer eagers to transfer thought from their memory to readers. Writer who uses the power of literal word professionally, can bring everything from their memory to literal trace lucky, and even can change whole memory to artistic text.

Y.Samadoglu had passed different levels of XX century Azerbaijan prose approximately in half century of his activity period. All main features of these levels and artistic esthethic colour could be reflected in his activity. Memory as an artistic-esthetic category have been passed as a common line in writer's activity, Y.Samadoglu who began from story finished in novel, literal heritage research is more actual from this point of view. National-cultural, historical-social, mythopetik memory reflect in his traces as separate level.

The object of research is the novels and stories in different level of Y.Samadoglu's activity. "Xəzri" (Khazri), "Yaddan çıxmış sözlər (Forgotten words)", "Gözlər" (Ayes), "Qartal" (Eagle), "220№li otaq" (Room number 220), "Güllər" (Flowers), "Saat işləyir" (Clock is on), "Simurq quşu"(Simurq bird), "Qalaktika" (Galaxy), "Soyuq daş" (A cold stone), "Beşik" (Cradle), "46-cı ilin oyunları" (Games of 46 year), "Foto-fantaziya" (Photo-fantasy), "Astana" (Astana), "Bayatı-şiraz" (Bayati-Shiraz), "İncə dərsində yaz çağı" (Inca at the lesson in spring time), "Qətl günü" (Execution day), "Deyilənlər gəldi başa" (Sayings were realized).

Dissertation consists of Introduction, three chapters, result and references.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАД[illegible] НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТ[illegible] НИЗАМИ ГЯНДЖЕВИ**

***На правах рукописи***

**ЛЕЙЛА АЛЛАХКУЛУ кызы АЛИЕВА**

# ХУДОЖЕСТВЕННО - ЭСТЕТИЧЕСКАЯ ФУНКЦИЯ ПАМЯТИ В ПРОЗЕ ЮСИФА САМЕДОГЛУ

5716.01 – Азербайджанская литература

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по филологии

**БАКУ – 2018**